**Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin 2023-cü ilin altı ayı ərzində fəaliyyətinə dair**

# HESABAT

Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi yaradılan imkanlardan istifadə edərək qanunvericilikdən, Nizamnamədən və İş Planından irəli gələn vəzifələri icra etmiş, fəaliyyətində peşəkarlığın və keyfiyyətin artırılması, şəffaflıq və obyektivliyin təmin edilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarətin gücləndirilməsi istiqamətində tədbirləri 2023-cü ilin altı ayı ərzində də davam etdirmişdir.

7 mart 2023-cü il tarixdə İş Planına uyğun olaraq Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Dövlət İmtahan Mərkəzinin akt zalında 48 dövlət orqanını təmsil edən nümayəndənin iştirakı ilə **“Heydər Əliyev və Azərbaycanda müasir dövlət qulluğu sisteminin yaradılması”** mövzusunda tədbir keçirilmişdir.

31 mart 2023-cü il tarixdə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi və Dövlət və ictimai münasibətlər ixtisaslarında təhsil alan tələbələrin iştirakı ilə **"Heydər Əliyev Azərbaycanda müasir dövlət qulluğu sisteminin banisidir"** mövzusunda tədbir keçirilmişdir. Tədbirdə 80 nəfər tələbə iştirak etmişdir.

27 aprel 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə Naçxıvan Dövlət Universitetində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan **"Ümummilli Lider Heydər Əliyev və ölkəmizdə müasir dövlət idarəçilik sisteminin yaradılması"** mövzusunda tədbir və “Karyera günü” keçirilmişdir. Tədbirdə 115 nəfər tələbə iştirak etmişdir.

8 may 2023-cü il tarixdə “**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi”** ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin kollektivi Heydər Əliyev Muzeyini ziyarət etmişdir.

Hesabat dövründə müvafiq fərman və sərəncamlardan irəli gələn vəzifələrin və Dövlət İmtahan Mərkəzinə aid cari tapşırıqların, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi, dövlət qurumlarında attestasiya, sertifikasiya və işə qəbul imtahanlarının keçirilməsi, test bazasının mütəmadi zənginləşdirilməsi daim nəzarətdə saxlanılmışdır.

2023-cü ilin fevral ayının 1-də Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin elektron informasiya resursu Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən **“GOV.AZ”** zonasında qeydiyyatdan keçirilmiş, təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı müvafiq tədbirlər görülmüş və yeni **www.ndim.gov.az** domen adı ilə **"AzStateNet"** şəbəkəsinə köçürülmüşdür.

2023-cü ilin fevral ayının 22-də Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin siyasi və inzibati vəzifə tutan 22 əməkdaşı üçün **e.gov.az** domen zonasında yerləşdirilmiş domenə bağlı **elektron poçt** ünvanı təqdim edilmişdir.

Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci il ərzində dövlət qulluğu sahəsində vəziyyətlə bağlı illik statistik məlumatlar hazırlanmış və aidiyyəti üzrə təqdim olunmuşdur.

**Ümimilikdə, 2023-cü ilin altı ayı ərzində Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müxtəlif istiqamətlərə keçirilən işə qəbul imtahanları nəticəsində 141 nəfər işlə təmin olunub.** Dövlət qulluğuna qəbul imtahanı nəticəsində 8 nəfər, müəllimlərin işə qəbulu imtahanlarında 67 nəfər, Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecinə işə qəbul üçün keçirilən imtahanlarda 25 nəfər, musiqi məktəblərinə keçirilən imtahanlarda 4 nəfər, dövlət qulluğu vəzifələrinin tutulması üçün ümumi müsahibələrdə

16 nəfər uğur qazanaraq müvafiq vəzifələrə təyin olunmuşdur. Ötən dövr ərzində ehtiyat kadrlar siyahısından 21 nəfər işlə təmin edilmişdir.

Ötən ilin dekabr ayında dövlət qulluğuna qəbul imtahanı nəticəsində uğur qazanmış 8 nəfər 2023-cü ilin yanvar ayında müvafiq vəzifələrə təyin olunmuşdur.

Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecində vakant vəzifələrin tutulması üçün 3 noyabr 2022-ci il tarixdə elan edilmiş müsabiqəyə 102 vakant vəzifə çıxarılmış, 37 müraciət qeydə alınmışdır. 22 dekabr 2022-ci il tarixdə keçirilmiş test imtahanlarında 37 namizəd iştirak etmiş, onlardan 30-u müvafiq keçid balını toplamışdır. Namizədlərin praktiki hazırlığı və peşəkarlıq qabiliyyətinin yoxlanılması üçün 24-25 yanvar 2023-cü il tarixdə keçirilən müsahibə mərhələsində 28 namizəd iştirak etmiş, onlardan 24-ü keçid balını toplamışdır. Müsahibə imtahanının nəticələri ilə bağlı 4 namizəd apellyasiya şikayəti ilə müraciət etmişdir. 6 fevral 2023-cü il tarixdə Naxçıvan Dövlət Universitetində 4 namizəd üçün təkrar müsahibə keçirilmiş, onlardan 2-si keçid balını toplamışdır. Keçid balını toplamış namizədlərin sənədləri işə təyinat üçün Naxçıvan Dövlət Universitetinə göndərilmiş və 25 nəfər vəzifəyə təyin olunmuşdur.

Müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün 12 noyabr 2022-ci il tarixdə elan edilmiş müsabiqəyə 132 vakant vəzifə çıxarılmış, 489 namizəd sənəd təqdim etmişdir. 26-29 dekabr 2022-ci il tarixlərdə keçirilmiş test imtahanlarında 483 namizəd iştirak etmiş, 317 namizəd keçid balını toplamışdır. Keçid balını toplamış namizədlərin sənədləri işə təyinat üçün Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə göndərilmiş və 2023-cü ilin fevral ayında 67 nəfər vəzifəyə təyin olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün 13 iyun 2023-cü il tarixdə elan olunmuş müsabiqəyə 200 vəzifə çıxarılmış, 1351 namizəd sənəd təqdim etmişdir. Test imtahanları 3-13 iyul 2023-cü il tarixlərdə keçiriləcəkdir.

Dövlət musiqi təhsili müəssisələrinə işə qəbul üçün 22 noyabr 2022-ci il tarixdə elan edilmiş müsabiqəyə 40 vakant vəzifə çıxarılmış, 25 müraciət qeydə alınmışdır. 16 yanvar 2023-cü il tarixdə keçirilmiş test imtahanlarında 25 namizəd iştirak etmiş və onlardan 6-sı müvafiq keçid balını toplamışdır. Namizədlərin praktiki hazırlığı və ifaçılıq qabiliyyətinin yoxlanılması üçün 14 fevral 2023-cü il tarixdə keçirilən müsahibə mərhələsində 6 namizəd iştirak etmiş, 6-sı keçid balını toplamışdır. Keçid balını toplamış namizədlərin sənədləri işə təyinat üçün Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyinə göndərilmiş və 4 nəfər vəzifəyə təyin olunmuşdur.

23 fevral 2023-cü il tarixdə Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində məsləhətçi vəzifəsinin tutulması üçün ümumi müsahibə elanı olunmuşdur. 20 aprel 2023-cü il tarixdə keçirilən müsahibədə 2 namizəd iştirak etmiş 1 namizəd uğur qazanaraq vəzifəyə təyin olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə ədliyyə orqanlarında vakant vəzifələrin tutulması üçün 4 mart 2023-cü il tarixdə elan edilmiş müsabiqəyə 7 vakant icra məmuru vəzifəsi çıxarılmış, 6 müraciət qeydə alınmışdır. 9 iyun 2023-cü il tarixdə keçirilmiş test imtahanlarında 6 namizəd iştirak etmiş və onlardan 4-ü müvafiq keçid balını (100 bal üzərindən 55 və daha çox) toplamışdır.

15 mart 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində 6 məsləhətçi-məhkəmə iclas katibi və 5 hakim köməkçisi vəzifələrinin tutulması üçün ümumi müsahibə elan olunmuşdur. 26-27 aprel 2023-cü il tarixlərdə keçirilən müsahibədə 21 nəfər iştirak etmiş və 11 nəfər uğur qazanmış, 10 nəfər müvafiq vəzifələrə təyin olunmuşdur.

19 aprel 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin Kəngərli Rayon Şöbəsində məsləhətçi vəzifəsinin

tutulması üçün ümumi müsahibə elan olunmuşdur. 22 may 2023-cü il tarixdə keçirilən müsahibədə 1 namizəd iştirak etmiş və uğur qazanaraq vəzifəyə təyin olunmuşdur.

25 aprel 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət orqanlarında inzibati vəzifələrin altıncı-yeddinci təsnifatı üzrə 57 vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə elan olunmuşdur. 19-22 iyun tarixlərində keçirilən test imtahanlarda müraciəti qeydə alınmış 292 namizəddən 281-i iştirak etmiş, onlardan 114-ü müvafiq keçid balını toplamışdır.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki müəssisələrə işə qəbul üçün 28 fevral 2023-cü il tarixdə elan edilmiş müsabiqəyə 345 vakant vəzifə çıxarılmış, 192 müraciət qeydə alınmışdır. 4-5 may 2023-cü il tarixlərdə keçirilmiş test imtahanlarında müraciət etmiş 147 namizəddən138-i iştirak etmiş və onlardan 90-ı müvafiq keçid balını toplamışdır. Qabiliyyət tələb olunan ixtisaslar üzrə vəzifələri tutmaq istəyən 45 namizəd (bədii və yaradıcı heyət) və test imtahanında uğur qazanmış 90 namizəd olmaqla ümumilikdə 135 namizəd müsahibə mərhələsinə buraxılmışdır. Namizədlərin praktiki hazırlığı və peşəkarlıq qabiliyyətinin yoxlanılması üçün 19-26 may 2023-cü il tarixlərdə keçirilən müsahibə mərhələsində 125 namizəd iştirak etmiş, onlardan 81-i keçid balını toplamışdır.

Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrdə vakant vəzifələrin tutulması üçün 1 mart 2023-cü il tarixdə elan edilmiş müsabiqəyə 385 vakant vəzifə çıxarılmış, 136 namizəd sənəd təqdim etmişdir. 22-23 may 2023-cü il tarixlərdə keçirilmiş test imtahanlarında 133 namizəd iştirak etmiş, 106 namizəd keçid balını toplamışdır. 31 may 2023-ci il tarixdə keçirilmiş müsabiqənin klinik tapşırıq mərhələsində 104 namizəd iştirak etmişdir. Həkim vəzifələri üzrə iştirak etmiş 1 namizəd və orta tibb işçisi vəzifələri üzrə 103 namizəddən 74-ü müvafiq keçid balını toplamışdır.

3 may 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsində böyük məsləhətçi-mühasib vəzifəsinin tutulması üçün ümumi müsahibə elan olunmuşdur. 5 iyun 2023-cü il tarixdə keçirilən müsahibədə 3 nəfər iştirak etmiş və uğur qazanmışlar. Müsahibədə keçid balını toplamaqla ən yüksək bal toplamış 1 nəfər vəzifəyə təyin olunmuşdur.

11 may 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsində rəis müavini vəzifəsinin tutulması üçün ümumi müsahibə elan olunmuşdur. 16 iyun 2023-cü il tarixdə keçirilən müsahibədə 1 nəfər iştirak etmiş və uğur qazanmışdır.

12 may 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində məsləhətçi-tərcüməçi vəzifəsinin tutulması üçün ümumi müsahibə elan olunmuşdur. 19 iyun 2023-cü il tarixdə keçirilən müsahibədə 6 nəfər iştirak etmiş, 2 nəfər uğur qazanmışdır. Müsahibədə keçid balını toplamaqla ən yüksək bal toplamış 1 nəfər vəzifəyə təyin olunmuşdur.

26 may 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində məhkəmə iclasının katibi vəzifəsinin tutulması üçün ümumi müsahibə elan edilmişdir. 5 iyul 2023-cü il tarixdə keçirilən müsahibədə 1 nəfər iştirak etmiş və uğur qazanmışdır.

26 may 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyində aparatın rəhbəri vəzifəsinin tutulması üçün ümumi müsahibə elan edilmişdir. 5 iyul 2023-cü il tarixdə keçirilən müsahibədə 2 nəfər iştirak etmiş, 1 nəfər uğur qazanmışdır.

26 may 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsində hakim köməkçisi vəzifəsinin tutulması üçün ümumi müsahibə elan edilmişdir. Sənəd qəbulu 25 iyun 2023-cü il tarixində bitmiş, 1 nəfər müraciət etmişdir. Müsahibənin 10 iyul 2023-cü il tarixdə keçirilməsi nəzərdə tutulmuşdur.

16 iyun 2023-cü il tarixdə Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində böyük məsləhətçi vəzifəsinin tutulması üçün ümumi müsahibə elan edilmişdir. Sənəd qəbulu 17 iyul 2023-cü il tarixədək davam edəcəkdir.

22 iyun 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Fitosanitar nəzarəti, bitkilərin mühafizəsi və karantin şöbəsinin müdiri vəzifəsinin tutulması üçün ümumi müsahibə elan edilmişdir. Sənəd qəbulu 21 iyul 2023-cü il tarixədək davam edəcəkdir.

Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün 27 may 2023-cü il tarixdə keçirilmiş test imtahanında 21 nəfər iştirak etmiş, 9 nəfər keçid balını toplamış, 12 nəfər keçid balını toplaya bilməmiş, 24 iyun 2023-cü il tarixdə 15 nəfər iştirak etmiş, 12 nəfər keçid balını toplamış, 3 nəfər keçid balını toplaya bilməmişdir.

Dövlət orqanlarında vakant vəzifələrinin tutulması üçün keçirilmiş 26 daxili müsahibədə (Ekologiya və Təbii Sərvətlər Nazirliyində məsləhətçi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində sektor müdiri, baş məsləhətçi, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində sektor müdiri, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, aparıcı məsləhətçi, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətində şöbə müdiri, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında “ASAN xidmət” Mərkəzində böyük məsləhətçi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində baş məsləhətçi, Dövlət Statistika Komitəsində şöbə müdiri, Maliyyə Nazirliyində baş mühasib, sektor müdiri, baş hüquqşünas, 5 baş məsləhətçi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində idarə müdiri, 2 baş məsləhətçi, Dövlət Sosial Müdafiə Fondunda sektor müdiri, Ağır Cinayətlər Məhkəməsində baş məsləhətçi, Ordubad Rayon İcra Hakimiyyətində icra hakimiyyəti başçısının nümayəndəsi) Dövlət İmtahan Mərkəzinin əməkdaşlarının nümayəndə qismində iştirakları təmin edilmişdir.

**Ehtiyat kadrlarla işin təşkili də diqqətdə saxlanılmışdır.** Dövlət İmtahan Mərkəzi tərəfindən ehtiyat kadrlar siyahısından 21 namizəd hesabat dövründə işlə təmin olunmuşdur.

2023-cü ilin altı ayı ərzində Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunmuş hazırlıq kurslarında 42 nəfər iştirak etmişdir.

**Dövlət qulluqçularının idarə edilməsinə dair mərkəzləşdirilmiş məlumat bazasının inkişaf etdirilməsi və ondan səmərəli istifadə olunması təmin edilmişdir.** 2023-cü ilin altı ayı ərzində Dövlət Qulluqçuları Reyestrindəki 55 dövlət orqanı üzrə 2423 dövlət qulluqçusunun məlumatları yenilənmiş və artırılmışdır.

Dövlət Qulluqçularının Reyestrinə əsasən, dövlət qulluğunda çalışan şəxslərdən 54 nəfəri siyasi, 1893 nəfəri inzibati və 476 nəfəri yardımçı vəzifə tutur. Cinsinə görə dövlət qulluğunda çalışan şəxslərdən 1837 nəfəri kişi, 586 nəfəri isə qadındır. Təhsil baxımdan 1953 nəfər ali, 160 nəfər orta ixtisas, 35 nəfər peşə ixtisas və 275 nəfər orta təhsillidir. İnzibati vəzifə tutan dövlət qulluqçularından 1787-si ali təhsilli, 73-ü orta ixtisas təhsilli, 17-si peşə ixtisas təhsilli, 16-sı isə orta təhsillidir. 541 nəfər gənc dövlət qulluqçusundan (29 yaşa qədər) 360 nəfəri kişi və 181 nəfəri qadın olmaqla, 1 nəfəri siyasi, 441 nəfəri inzibati, 99 nəfəri isə yardımçı vəzifə tutur. Dövlət qulluğunda çalışan şəxslərin 22,3 faizini gənclər, 24,2 faizini isə qadınlar təşkil edir.

2023-cü ilin altı ayı ərzində 73 nəfərin dövlət qulluğuna xitam verilmişdir ki, onlardan 45-i öz ərizəsi əsasında, 4-ü intizam tənbehinə əsasən, 1-i dövlət orqanı ləğv olunduğu üçün, 12-si ştat ixtisar olunduğuna görə, 5-i işə qəbulla əlaqədar qanunvericiliyin tələbləri pozulduğuna görə, 1-i dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi məqsədi ilə növbəti sertifikat ala bimədiyi üçün və 5-i isə təqaüdə çıxdığı üçün işdən azad olunmuşdur. Bundan başqa 5 nəfər barəsində intizam tənbeh tədbirləri tətbiq olunmuşdur.

Hazırda muxtar respublikanın dövlət orqanlarında inzibati vəzifə tutan dövlət qulluqçularının təqribən 42 faizi Dövlət İmtahan Mərkəzinin keçirdiyi müsabiqələrdə uğur qazanmış dövlət qulluqçularıdır.

Dövlət qulluqçuları ilə tədbirlər keçirilmiş və Dövlət İmtahan Mərkəzinə müraciət edən dövlət qulluqçularına müvafiq mövzularla bağlı köməklik göstərilmişdir.

**Muxtar respublikanın 49 dövlət orqanı tərəfindən inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilmiş və 2023-cü ilin mart ayınadək yekun hesabatları Dövlət İmtahan Mərkəzinə rəsmi surətdə təqdim edilmişdir.** Ümumilikdə 1651 dövlət qulluqçusunun xidməti fəaliyyəti qiymətləndirilmişdir. Bunlardan 1350 nəfəri (81,8 %) kişi, 301 nəfəri (18,2 %) isə qadın dövlət qulluqçularıdır. Dövlət orqanları tərəfindən 218 nəfərin fəaliyyəti əla (13,2 %), 1062 nəfərin yaxşı (64,3 %), 370 nəfərin kafi (22,4 %) və 1 nəfərin fəaliyyəti qeyri-kafi (0,1 %) kimi qiymətləndirilmişdir.

**Dövlət İmtahan Mərkəzinin test bazasının yeni suallarla zənginləşdirilməsinin və testlərin ekspertizasının davam etdirilməsi diqqətdə saxlanılmışdır.** Test imtahanı zamanı namizədlərin bilik səviyyəsinin daha ətraflı yoxlanılması, qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərin test suallarında öz əksini tapması məqsədi ilə test bankı təkmilləşdirilmişdir. Altı ay ərzində müəllimlərin işə qəbulu və sertifikasiyanın aparılması ilə əlaqədar 5052 və Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrə işə qəbul ilə əlaqədar 35 (klinik tapşırıq) yeni sual test bankına işlənmişdir.

Mütəmadi olaraq dövlət orqanlarından vəzifə təlimatları və vakant vəzifələr barədə məlumatlar alınmış və bu məlumatların mərkəzləşdirilmiş informasiya bazasına daxil edilməsi ilə müsabiqə və müsahibələrin keçirilməsi zamanı özündə vakant vəzifə barədə ətraflı məlumatları əks etdirən elanların verilməsi işi daha da asanlaşdırılmışdır. Belə ki, informasiya bazasında hər hansı vəzifə barədə mövcud məlumatların həmin vəzifənin tutulması ilə bağlı kütləvi informasiya vasitələrində verilən elanda öz əksini tapması namizədin vakant vəzifənin tələb və şərtlərini təhlil edərək özünün bilik və bacarıqlarına uyğun vəzifə seçməsinə imkan yaratmış olur.

2023-cü ilin altı ayı ərzində xəbərlər, elanlar, test imtahanlarının nəticələri, test imtahanı və müsahibə proqramları, qanunvericiliyə edilən dəyişikliklər portalda yerləşdirilmişdir.

Dövlət orqanlarının kadr qurumları ilə mütəmadi əlaqə saxlanılmış, dövlət qulluqçularının şəxsi işlərinin və reyestrin aparılması qaydası, ixtisas dərəcələrinin verilməsi və digər məsələlərlə bağlı metodiki köməklik göstərilmişdir.

**Altı ay ərzində elektron xidmətlər və elektron sənəd dövriyyəsinin təşkili həyata keçirilmişdir.** Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemlərinin istifadəyə verilməsi mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında elektron sənəd dövriyyəsinin daha operativ təşkil olunmasına, vətəndaşlarla dövlət qurumları arasında münasibətlərin sadələşdirilməsinə, vaxt itkisinə yol verilmədən daxil olan müraciətlərə baxılmasına və cavablandırılmasına imkan yaratmışdır. Altı ay ərzində Elektron Sənəd Dövriyyəsi sistemləri vasitəsilə 502 məktub daxil olmuş, 538 məktub göndərilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 sentyabr tarixli 339 nömrəli qərarı ilə təsdiq edilmiş “Telefon müraciət xidməti vasitəsilə şifahi müraciətlərin edilməsi, qəbulu, qeydiyyatı və cavablandırılması Qaydası”na əsasən, telefon müraciət xidməti vasitəsilə daxil olmuş 56 şifahi müraciət qeydə alınmış və Dövlət İmtahan Mərkəzinin aidiyyatı şöbələrinin əməkdaşları tərəfindən qanunvericiliyə uyğun olaraq cavablandırılmışdır.

**Vətəndaşların müraciətlərinə baxılması qanunvericilikdə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilmişdir.** Vətəndaşlar tərəfindən Dövlət İmtahan Mərkəzinə daxil olan 170 müraciət “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə araşdırılmış və

cavablandırılmışdır. Bunlardan 90-ı yazılı, 80-i isə elektron müraciət formasında qeydə alınmışdır. Müraciətlər əsasən dövlət qulluğuna qəbul qaydaları, dövlət qulluqçusunun qulluq stajının hesablanması, ixtisas dərəcəsinin verilməsi, hazırlıq kursları, test imtahanında iştirak etmək üçün ödəniş məbləğinin ödənilməsi və ya geri qaytarılması ilə bağlı olmuşdur.

Altı ay ərzində 149 vətəndaşın qəbulu həyata keçirilmişdir ki, onlardan 27-si Dövlət İmtahan Mərkəzinin sədri tərəfindən qəbul edilmişdir.

**Altı ay ərzində mətbuat və ictimaiyyətlə əlaqələrin təşkili qanunvericiliyə uyğun olaraq həyata keçirilmişdir.** Dövlət İmtahan Mərkəzi öz fəaliyyəti barədə, habelə dövlət qulluğu sistemi, hamilik, dövlət qulluğuna qəbul və bu sahədə tətbiq olunan yeniliklər və digər məsələlərlə bağlı təşkil edilən tədbirləri mütəmadi olaraq kütləvi informasiya vasitələri ilə ictimaiyyətə çatdırıb. Hesabat dövründə **"Şərq qapısı"** qəzetində Dövlət İmtahan Mərkəzinin keçirdiyi tədbirlərlə bağlı 14 yazı dərc olunub, **qəzetin saytında** 12 informasiya yerləşdirilib. Dövlət İmtahan Mərkəzinin keçirdiyi tədbirlər haqqında Naxçıvan Televiziyasında 2, Mərkəzin **“ntv.az”** saytında 12, **“kanal35.az”** saytında 4, **“Kanal 35”** televiziyasında 11, **“Naxçıvanın səsi”** radiosunda 11 xəbər təqdim edilib. Dövlət İmtahan Mərkəzinin keçirdiyi 15 tədbir **"Nuhçıxan"** İnformasiya Agentliyində, 19 tədbir isə **"naxcivanxeberleri.com"** internet xəbər portalında, 17 tədbir isə **“naxcivan.xeberleri”** instagram səhifəsində işıqlandırılıb. Mərkəzin **internet portalı** vasitəsilə 48, **"Facebook"** səhifəsi vasitəsilə 56 və **"İnstagram"** səhifəsi vasitəsilə 49 xəbər və elan olmaqla, ümumilikdə **270** məlumat ictimaiyyətə çatdırılıb.